*Azərbaycan-İtaliya əlaqələri strateji səviyyədə inkişaf edən və hər iki ölkə üçün mühüm əhəmiyyəti olan əməkdaşlıq münasibətləridir. Bu əlaqələr siyasi, iqtisadi, enerji və mədəni sahələrdə xarakterizə olunur. Azərbaycan və İtaliya arasında siyasi dialoq yüksək səviyyədədir. İtaliya Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin gücləndirilməsində önəmli rol oynayır və Cənubi Qafqazda mühüm strateji tərəfdaş hesab olunur. İtaliya həm də Azərbaycanın ticarət tərəfdaşlarından biridir. İki ölkə arasında ticarət dövriyyəsi əsasən enerji sektoru üzərində qurulub, Azərbaycan İtaliyaya neft və qaz ixrac edən əsas ölkələrdən biridir. 2020-ci ildə istifadəyə verilən TAP (trans-Adriatik Boru Kəməri) Azərbaycanın enerji resurslarını Avropaya, o cümlədən İtaliyaya çatdırmaq üçün mühüm infrastruktur layihəsidir. Azərbaycan və İtaliya arasında mədəni sahədə də sıx əlaqələr mövcuddur.*



# Azərbaycan və İtaliya:

## siyasi təmaslar və uğurlu layihələr

İtaliya incəsənəti, tarixi və mədəniyyəti ölkəmizdə geniş şəkildə tanıdılır. Hər iki ölkədə təşkil olunan mədəniyyət tədbirləri, sərgilər və festivallar xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluğun güclənməsinə kömək edir. Ümumiyyətlə, bu əlaqələr hər iki tərəf üçün strateji əhəmiyyət daşıyan sahələr üzrə davamlı olaraq inkişaf edir. Azərbaycan-İtaliya iqtisadi əlaqələri müstəqillik illərindən etibarən yüksək səviyyədə inkişaf edərək strateji tərəfdaşlığa çevrilib. Bu münasibətlər özünü ən çox ticarət və investisiya sahələrində göstərir. 6 milyard ABŞ dollarından çox ticarət dövriyyəsi ilə İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. İtaliya Azərbaycandan neft və qaz idxal edən ölkələr sırasında liderdir və bu, TAP layihəsi ilə birbaşa bağlıdır.

İki ölkə investisiya əməkdaşlığını da uğurla inkişaf etdirir. İtaliya Azərbaycanın iqtisadiyyatına 770 milyon, Azərbaycan isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində investisiya yatırıb. Bu investisiyalar neft-qaz sektorundan kənara çıxaraq sənaye, tikinti, kənd təsərrüfatı və xidmət sektorlarına qədər genişlənib. Azərbaycanda fəaliyyət göstərən 114 İtaliya şirkəti bunun bariz nümunəsidir. Eyni zamanda İtaliya şirkətləri Azərbaycanın neft-qaz sektorunda dəyəri 9,9 milyard dollar olan 277 layihədə podratçı kimi iştirak edirlər. Bu rəqəmlər iki ölkə arasında iqtisadi əməkdaşlığın çoxşaxəli olduğunu və hər iki tərəfin iqtisadi inkişafına mühüm töhfə verdiyini sübut edir. Azərbaycan və İtaliya arasındakı uğurlu əməkdaşlıq əlaqələri yaxın illərdə daha da güclənəcək və hər iki ölkə üçün mühüm iqtisadi və strateji faydalar gətirəcək.

Azərbaycan və İtaliya münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsində dövlət başçılarının qarşılıqlı səfərləri də müstəsna əhəmiyyət daşıyır. Ümummilli lider Heydər Əliyev 1997-ci ildə İtaliyaya ilk dəfə rəsmi səfər etməsi iki ölkə arasındakı əlaqələrə təkan verib. İtaliya Prezidenti Sercio Mattarella 2018-ci ildə Azərbaycana ilk dövlət səfərinə gəlib. Bu səfərdən sonra Prezident İlham Əliyevin 2020-ci və 2022-ci illərdə İtaliyaya dövlət səfərləri reallaşıb.

Prezident İlham Əliyev sentyabrın 4-də İtaliyaya növbəti dəfə səfər edib. Bu səfər İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə həyata keçib. Dövlət başçısı sentyabrın 5-də İtaliyanın paytaxtı Romada bir sıra görüşlər keçirib. Ölkə başçısı əvvəlcə Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudi Deskalzi ilə görüşüb. Görüşdə SOCAR ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunulub, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.







Dövlət başçısı həmin gün İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə də görüşüb. Ciorcia Meloni dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğunu vurğulayaraq Prezident İlham Əliyevlə İtaliya-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığını qeyd edib, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyini bildirib. Ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparılıb. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya-Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olunub. Daha sonra Azərbaycan ilə İtaliya arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə imzalanmış sənədlərin mübadiləsi mərasimi olub. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə ediblər. Bundan başqa "Azərbaycan Dövlət Neft Şirkəti ilə İtaliyanın "Eni S.P.A" şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında, o cümlədən enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə ediblər.

Prezident İlham Əliyev sentyabrın 6-da İtaliyada Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edib. Uzun illərdir ki, Azərbaycan və İtaliya strateji tərəfdaş olaraq fəaliyyət göstərir və müvafiq bəyannamə 10 il bundan qabaq qəbul edilib. Bizim əlaqələrimiz bütün sahələri əhatə edir, müntəzəm siyasi təmaslarımız var, - deyən dövlət başçısı bu səfərin 2020-ci ildən bəri onun İtaliyaya üçüncü səfəri olduğunu və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfər etməsini xatırladıb: "Bizim yüksək səviyyəli təmaslarımız onu nümayiş etdirir ki, biz çox yaxın tərəfdaşlarıq".

**Musa BAĞIRLI,**
**"Respublika".**